

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 132 (23.294)

18 iyul 2019-cu il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının şura iclası keçirilib



*Şura iclasında Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının yaranmasının 15-ci ildönümü qeyd olunub, 2019-cu ilin birinci yarım ilinin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib.*

Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin Qıvraq qəsəbəsində ucaldılmış əzəmətli abidəsini ziyarət edib, abidə önünə tər qərənfillər düzüblər.

Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatında keçirilən tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva çıxış edərək bildirib ki, bu il ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyə gəlişinin 50 illiyi tamam oldu. Ulu öndərin 1969-cu ilin 14 iyulunda hakimiyyətə gəlişi Azərbaycanın tarixində yeni səhifə açdı. 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə gələn ümummilli liderimiz bugünkü müasir, müstəqil Azərbaycan dövlətini məhz ölkəmizə rəhbərliyinin birinci dövründə yaradılan təməl üzərində qurub.

Vurğulanıb ki, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Gündən-günə gözəlləşən, yeniləşən muxtar respublikamız da məhz Heydər Əliyev ideyalarından güc alaraq özünün yeni inkişaf mərhələsini yaşayır.

Diqqətə çatdırılıb ki, diyarımızın ən gənc rayonu olan bu rayon da müstəqil Azərbaycanın bəhrəsi kimi həyata keçirilən siyasətin məzmununu özündə əks etdirir. Bu il yaradılmasının 15 illiyi tamam olan Kəngərli rayonu ötən illər ərzində böyük inkişaf yolu keçib. Aparılan abadlıq-quruculuq tədbirləri bütün yaşayış məntəqələrinin simasını tamamilə dəyişib.

Sevda Quliyeva vurğulayıb ki, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı 2004-cü il iyulun 17-də təsis edilib. Bu gün təşkilatın yaradılmasının 15 ili tamam olur. O zaman Şərur və Babək rayonlarının yaşayış məntəqələrindən Kəngərli rayonuna verilmiş 11 kənddə 20 Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı fəaliyyət göstərirdi ki, bu təşkilatlarda, ümumilikdə, 1215 nəfər partiya üzvü birləşirdi. Partiyanın rayon təşkilatı qısa vaxt ərzində böyük inkişaf və təşkilatlanma yolu keçərək hazırda 30 ərazi ilk partiya təşkilatında birləşən 3 min 184 nəfər partiya üzvündən, o cümlədən 1305 qadın, 1094 gəncdən ibarətdir. 2019-cu ilin birinci yarım ilində təşkilatın sıralarına 37 nəfər üzv qəbul edilib, bunlardan 22-si qadın, 32-si isə gəncdir.

Bildirilib ki, partiyanın rayon təşkilatı öz fəaliyyətini Yeni Azərbaycan Partiyasının Nizamnamə və Proqramına, təşkilatın müəyyən olunmuş müvafiq iş planına və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının 2017-ci il 16 mart tarixli iclasının tələblərinə uyğun qurub.

2019-cu ilin birinci yarım ilində təşkilatın 2 şura iclası, 5 idarə heyəti yığıncağı keçirilib. Partiya yığıncaqlarında görülən işlərin hesabatı dinlənilib, işin keyfiyyətinin artırılması üçün məqsədyönlü tədbirlər həyata keçirilib. Rayonda tikilən kənd mərkəzlərində partiyanın ərazi ilk təşkilatları üçün hər cür şəraiti olan iş otaqlarının ayrılması bu təşkilatların aktiv fəaliyyətinə geniş imkanlar yaradıb.

Rayonda həyata keçirilən müxtəlif tədbirlərdə partiya üzvlərinin aktiv iştirakından bəhs edən Sevda Quliyeva yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib.

Tədbirdə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı, təşkilatın şura və idarə heyətlərinin üzvü Kamal Ələkbərov və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov çıxış edərək Kəngərli Rayon Təşkilatının fəaliyyət göstərdiyi illər ərzində keçdiyi inkişaf yolundan danışıblar.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2004-cü ildə Naxçıvan Muxtar Respublikasında Kəngərli rayonunun yaradılması haqqında Qanun imzalayıb. Həmin qanuna əsasən Kəngərli rayonunun yaradılmasından sonra partiya nizamnaməsinə uyğun olaraq Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının təsis edilməsi işinə başlanılıb. Təşkilat ötən 15 il ərzində rayonun ictimai-siyasi və sosial həyatında fəal iştirak edib.

Sonra partiyanın sıralarına yeni qəbul olmuş bir qrup gəncə üzvlük vəsiqələri təqdim edilib, partiya veteranlarına hədiyyələr verilib.

**Babək İSMAYILOV**

## "Səyyari dövlət qulluğu xidməti könüllülüyü" startap layihəsinin birinci mərhələsi başa çatıb



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən könüllülərin iştirakı ilə "Səyyari dövlət qulluğu xidməti könüllülüyü" startap layihəsi uğurla həyata keçirilir. Belə ki, komissiyanın əməkdaşları və könüllülər iyul ayının 5-də Şərur, 12-də Ordubad, 17-də isə Culfa rayonlarında vətəndaşlara səyyar xidmət göstəriblər. Xidmətin məqsədi rayonlarda yaşayan, internet və informasiya-kommunikasiya texnologiyalarından istifadə edə bilməyən və elektron xidmətlərdən yararlanmaqda çətinlik çəkən vətəndaşlara yaşadıqları yerlərdə köməklik göstərilməsindən ibarətdir.

Bu layihənin irəli sürülməsi vətəndaşların sənəd qəbulu zamanı qarşılaşdıqları çətinliklərin aradan qaldırılmasına, eləcə də rayonlarda yaşayan şəxslərin sənəd təqdim etmək üçün mərkəzə gəlməsinin və bunun nəticəsində yaranan vaxt və maliyyə itkisinin qarşısının alınmasına xidmət edir. Xidmətin həyata keçirilməsi zamanı komissiya əməkdaşının müşayiəti ilə könüllülər vətəndaşlarla birbaşa ünsiyyətdə olub, lazımi sənədləri qəbul edib, həmin sənədlərin düzgünlüyünü yoxlayaraq surətlərini şəxsi kabinetə yükləyib və onların müsabiqədə iştiraklarını təmin ediblər.

Qeyd edək ki, xidmət tətbiq olunmazdan əvvəl könüllülər komissiyanın və Gənclər Fondunun əməkdaşları tərəfindən keçirilən təlimlərə cəlb olunub. Onlara "Etik davranış qaydaları", "Könüllülərin vəzifələri və məsuliyyətləri", "Sənəd qəbulunun həyata keçirilməsinin üsul və qaydaları", "Ünsiyyətin düzgün qurulması" və "Vətəndaşlarla ünsiyyət" mövzularında təlim keçirilib.

Layihə müddətində Şərur, Ordubad və Culfa rayonlarında yaşayan və muxtar respublikanın dövlət ümumi təhsil və musiqi təhsili müəssisələrinə işə qəbul üçün elan olunmuş müsabiqələrdə iştirak etmək istəyən 72 vətəndaşa operativ köməklik göstərilib və xidmət vətəndaşlar tərəfindən yüksək qiymətləndirilib.

Növbəti müsabiqə elanları zamanı da vətəndaşlara rayonlarda səyyar xidmətin göstərilməsi davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Bərpa olunan enerji mənbələrindən istifadə mühüm əhəmiyyətə malikdir

***İnkişaf edən cəmiyyətimizdə enerjiyə olan tələbat günü-gündən artmaqdadır. Təbii resurslar sonsuz olmadığı üçün müasir dövrdə alternativ enerji mənbələri vacib xarakter daşımağa başlayıb. Belə enerji mənbələri, bildiyimiz enerji resurslarından fərqli olaraq ətraf mühit və ekologiya üçün müsbət xarakter daşıyır. Buna görə də hazırda bir çox ölkələr alternativ enerji mənbələrindən istifadə etməkdədir.***





Ötən ilin sonunda Dünya Enerji Konqresi alternativ enerjidən ən çox istifadə edən ölkələrin adlarını açıqlayıb. Siyahıda ilk yeri enerjisinin 59 faizini hidroelektrik stansiyalarından əldə edən İsveçrə tutur. Bu ölkə yalnız bir faiz təbii resurslar hesabına əldə olunan enerjidən istifadə edir. İkinci yer İsveçə məxsusdur. İsveç hökuməti istifadə etdiyi alternativ enerji mənbələri hesabına ekoloji çirklilikdən ən az əziyyət çəkən ölkədir. Neft ehtiyatları ilə zəngin olan Norveç dövləti isə alternativ enerji, xüsusilə də sudan əldə olunan enerjidən istifadə etməkdədir. Hazırda Norveç 98 faiz yenilənə bilən enerjidən istifadə edir. Ümumilikdə, bu sahədə ABŞ, Kanada, Almaniya, Finlandiya, Danimarka, İspaniya, Yaponiya və Çin kimi ölkələr də qabaqcıl mövqe tuturlar. Bu məlumatları bölüşməkdə məqsədimiz odur ki, adıçəkilən ölkələrdə yenilənən enerji mənbələrindən istifadə geniş yayılıb, eyni zamanda bu ölkələr iqtisadi cəhətdən kifayət qədər inkişaf etmiş ölkələrdir.

Azərbaycanın, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının mövcud təbii ehtiyatları, əlverişli iqlimi bərpa olunan enerji mənbələrindən səmərəli istifadə olunmasına əlverişli şərait yaradır. Məhz bunun nəticəsidir ki, ötən dövr ərzində ölkəmizdə, eləcə də muxtar respublikamızda enerji təhlükəsizliyi ilə bağlı atılan addımlar bu sahənin hərtərəfli inkişafına zəmin yaradıb, nəticədə, muxtar respublika enerji idxal edən diyardan enerji ixrac edən məkana çevrilib.

Xatırladaq ki, hələ ötən əsrin 90-cı illərinin əvvəllərində blokada şəraitində yaşayan Naxçıvan ciddi enerji böhranı ilə üzləşən zaman ulu öndər Heydər Əliyevin səyləri nəticəsində 1993-cü ildə İran İslam Respublikasından 42, Türkiyə Respublikasından isə 63 meqavat elektrik enerjisinin nəqlinə başlanıldı. O dövrdən etibarən muxtar respublikada müxtəlif gücə malik olan transformator yarımstansiyaları quraşdırılıb, yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilib, idxal olunan elektrik enerjisinin itkisiz paylanması, avadanlıqların yüklənməsinin qarşısını almaq və enerji təchizatının etibarlılığını yüksəltmək məqsədilə ardıcıl tədbirlər görülüb. Xüsusilə Heydər Əliyev Su Anbarı üzərində gücü 4,5 meqavat olan yeni su elektrik stansiyası, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası, Azərbaycanda ilk derivasiyatipli 22 meqavat güclü Biləv Su Elektrik Stansiyası, 20,5 meqavat güclü "Arpaçay-1" və 1,4 meqavat güclü "Arpaçay-2" Su Elektrik stansiyaları, Babək rayonu ərazisində 20 meqavat gücündə Günəş Elektrik Stansiyasının tikilib istifadəyə verilməsi və 2017-ci ildə stansiyanın gücünün daha 2 meqavat artırılması Naxçıvanın etibarlı enerji təminatına səbəb olub. Bu il isə Kəngərli rayonunda istifadəyə verilmiş 2 meqavat gücündəki yeni Günəş Elektrik Stansiyası il ərzində 3 milyon kilovat-saat elektrik enerjisi istehsalı gücünə malikdir. Bununla da Naxçıvan Muxtar Respublikasında Günəş Elektrik stansiyalarının qoyuluş gücü 24 meqavata, illik istehsal gücü isə 36 milyon kilovat-saata çatdırılıb.

Muxtar respublikamızın əlverişli iqlim şəraiti və coğrafi mövqeyi ekoloji cəhətdən təmiz, alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. Ötən dövrdə belə mənbələrdən istifadə energetika sektorunda davamlı inkişafı təmin edib, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə sahəsində müasir infrastruktur yaradılıb. Görülmüş işlərin nəticəsidir ki, muxtar respublikanın elektrik enerjisinə olan tələbatı 100 faiz bərpa olunan enerji mənbələri – su və günəş elektrik stansiyaları hesabına ödənilir. Bununla yanaşı, muxtar respublikada yeni elektrik stansiyalarının tikintisi və layihələndirilməsi işləri davam etdirilir. Belə ki, hazırda 36 meqavatlıq derivasiyatipli Ordubad Su Elektrik Stansiyasında tikinti işləri aparılır, gücü 14 meqavat olan Tivi Su Elektrik Stansiyası və 3,5 meqavat olan Qazançı Su Elektrik Stansiyası tikintisinin texniki-iqtisadi əsaslandırılması, Naxçıvan Günəş Elektrik Stansiyasının genişləndirilərək gücünün 30 meqavata qədər artırılması üçün layihə işləri hazırlanır. Culfa rayonunda isə gələcəkdə külək elektrik stansiyası tikintisinin texniki iqtisadi əsaslandırılması üçün ölçü qurğuları quraşdırılıb.

Göründüyü kimi, muxtar respublika energetikasında mövcud təbii potensiallardan lazımınca istifadə son bir neçə ildə bərpa olunan mənbələr hesabına enerji istehsalını artırmağa imkan verib. Qısa müddətdə bu sahədə mühüm nəticələr əldə olunub. Dünya təcrübəsi də göstərir ki, iqtisadiyyatın hərtərəfli inkişafı ictimai sabitliklə bərabər, həm də dayanıqlı enerji təminatından asılıdır. Digər tərəfdən, enerji asılılığı iqtisadi və milli təhlükəsizlik məsələlərinə birbaşa təsir edən, eyni zamanda bir ölkənin müstəqilliyini təhdid altına alacaq güclü təsir vasitəsi hesab olunur. Bu mənada, qlobal gücləri güclü edən əsas vasitənin də enerji ehtiyatı olduğu bir daha öz təsdiqini tapır. Məhz bu baxımdan son illərdə ölkəmizdə, eləcə də muxtar respublikamızda alternativ və bərpa olunan enerji mənbələrindən maksimum istifadəyə hesablanmış mühüm layihələrin həyata keçirilməsi böyük əhəmiyyəti ilə seçilir.

✍ **Səbuhi HƏSƏNOV**



Müasir yaşayış məntəqələrimiz

# Gəmiqayanın ətəyinə sığınan yurd yeri – *Nəsirvaz*

***Yolumuz yaşı min illərə söykənən, qədim tarixə, gözəl təbiətə, zəhmətkeş və torpağa bağlı insanları olan Ordubad rayonunun Nəsirvaz kəndinədir. Avtomobilimiz hamar yollarla irəlilədikcə sehrinə düşdüyümüz mənzərələr – gözəllik libası geyinən dağlar, dərələr, göyqurşağının rənglərini kölgədə buraxan rəngarəng çəmənliklər ruhumuza dinclik bəxş edir.***

Küləyin həzin mehindən yarpaqların pıçıltısını dinlədikcə, yenicə yağan yağışdan islanan torpağın ətrini hiss etdikcə xoş duyğular təlatümə gəlir, təbiət büründüyü libası ilə qəlbimizi riqqətə gətirir. Düşüncələrimizdə gözoxşayan mənzərələri və bərəkətli günləri ilə təcəssüm olunan fəsillərin yaraşığı yayı gözəl Naxçıvanımızın dağ kəndlərində müşahidə etmək, doğrudan da, bir başqa aləmdir. Belə əsrarəngiz mənzərələri heyranlıqla izlədiyimi görən sürücü deyir ki, Uca Yaradan bu yerlərə hər neməti bəxş edib. İlin bütün fəsillərində, günün hər çağında gözəldir, cazibədardır bu yerlər. Gilançay, Əyriçay boyunca sıralanan kəndlərdə uzaqdan boy göstərən yaraşıqlı binalar isə, heç şübhəsiz, gündən-günə inkişaf edən Naxçıvanın müasir mənzərəsidir. Görünən odur ki, muxtar respublikamızda aparılan geniş quruculuq, abadlıq işlərindən bütün kəndlərimizə pay düşüb. Günü-gündən yeniliyə qovuşan kəndlərdə mühüm infrastruktur layihələri həyata keçirilib. Bu yerlərdə aparılan quruculuq tədbirlərindən Nəsirvaz kəndi də öz payını alıb. Səfərimiz zamanı digər dağ kəndləri ilə yanaşı, bu kəndə də şəhər mədəniyyəti gətirildiyinin şahidi olduq. İstifadəyə verilən kənd və xidmət mərkəzləri, müasirtipli məktəb, mədəniyyət və səhiyyə ocaqları xidmətin səviyyəsini yüksəldib.



Bu kəndin təbiəti qədər sakinləri də gözəldir. Mehriban, qonaqpərvər, xoşçöhrəli olmaqla yanaşı, həm də sənəti, sənətkarı qiymətləndirən, adət-ənənələri yaşadandırlar. Kənddə xalçaçılıqla məşğul olan qadınlardan biri ilə söhbət zamanı bunun bir daha şahidi olduq. Həmsöhbətim Sabirə Zeynalova deyir ki, bu peşəni mənə anam öyrədib. Elə anama da öz anası. Bu sənəti yaşatmaqla həm vaxtımızı səmərəli keçirir, həm də adət-ənənələrimizi, dəyərlərimizi qoruyub saxlayırıq.

Burada olarkən kəndətrafı sahələrdə bir qələbəlik müşahidə etdik. Bostan-tərəvəz sahələrindən, meyvə bağlarından məhsul toplanırdı. Kənd sakinləri zəhmətkeş, torpağa, əməyə bağlı insanlardır. Kəndətrafı sahələrdəki bu xoş görüntülər bizi zəhmətkeş insanların yanına çəkib gətirdi, onlarla elə bərəkət ətirli tarlalarda, zəhmətin bəhrəsi duyulan ərazilərdə həmsöhbət olduq.

Kənd sakini Mərdan Rzayev deyir ki, kəndin münbit torpaqları sakinlərin məşğuliyyəti və gəlir mənbəyi olan bağçılıq, heyvandarlıq, arıçılıq və əkinçiliyin inkişafına rəvac verir. Dağlıq, əsasən də, yaylaq ərazilərin üstünlük təşkil etdiyi bu torpaqlardan kənd camaatı həm də biçənək və otlaq sahəsi kimi istifadə edir.

Müsahibimiz bir qədər əvvəldən də söhbət açır. Deyir ki, bir vaxtlar yolların tamamilə sıradan çıxması, xüsusən qarlı-yağışlı havalarda kənd sakinlərinin ən böyük problemlərindən idi. Üstəlik, iki saatdan bir yanan işıq, qışın oğlan çağında bir stəkan su qaynatmaq üçün ağaclardan ocaq qalamaq insanları lap bezdirmişdi. İndi daimi yanan işığımız, istənilən vaxt şölələnən təbii qazımız var. Bu gün kənddə camaatın rahatlığı üçün hər cür şərait yaradılıb, insanlar hərtərəfli qayğı ilə əhatə olunub, yeni sosial obyektlər tikilərək istifadəyə verilib.

Bəli, bir zamanlar köçürülmə təhlükəsi ilə üzləşdiyi halda, bu gün Nəsirvaz öz inkişaf və tərəqqi dövrünü yaşamaqdadır. Kənddə abadlıq-quruculuq işlərinin aparılması, o cümlədən məktəb binasının yenidən qurulması, xidmət və kənd mərkəzləri, səhiyyə ocağı, kitabxana üçün yeni binaların tikilərək istifadəyə verilməsi sakinləri öz yurd yerlərinə daha sıx tellərlə bağlayıb.

Burada olarkən Nəsirvaz kənd tam orta məktəbinin direktoru Elməddin Rzayevlə də həmsöhbət olduq. Onun dediklərindən: – Bir vaxtlar taxtadan qurulmuş 4 otaqdan ibarət Geoloji Kəşfiyyat İdarəsi kimi fəaliyyət göstərən komanı kənd camaatı təhsil ocağı kimi istifadə edirdi. 2013-cü il dekabr ayının 21-də burada yeni məktəb binası inşa olunaraq müəllim və şagirdlərin istifadəsinə verildi.

Direktor qeyd etdi ki, bu gün təhsil sahəsində aparılan məqsədyönlü siyasət, bu sahəyə göstərilən qayğı məktəbdə orta təhsilin müasir tələblər səviyyəsində qurulmasına şərait yaradıb. Məktəbin pedaqoji kollektivi də bu qayğının qarşılığında səylə çalışır. Görülən işlərin nəticəsidir ki, son illər məktəbi bitirən məzunlardan ali təhsil ocaqlarına qəbul olunanların sayı artır. Kollektiv ötən tədris ilində də yüksək nəticə əldə edib. Belə ki məktəbi bitirən hər iki məzun ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayıb.

Kəndin yeni sosial obyektləri sırasında sakinlərə tibbi xidmət göstərən feldşer-mama məntəqəsi də var. Bu tibb ocağı ucqar kənddə əhalinin sağlamlığının diqqət mərkəzində saxlanılmasına imkan verməklə yanaşı, onların əvvəllər olduğu kimi, zəruri tibbi xidmət üçün rayon mərkəzinə və digər yerlərə üz tutmalarının da qarşısını alır.

Nəsirvaz kəndində aparılan quruculuq işləri zamanı əhalinin gündəlik məişət tələbatının ödənilməsi də diqqət mərkəzində



saxlanılıb və burada yeni xidmət mərkəzi istifadəyə verilib. Eyni zamanda dövlət qurumlarının fəaliyyət göstərdiyi kənd mərkəzi sakinlərin müxtəlif müraciətlərinin həmin ünvanda həllini tapmasına imkan verir. Buna görə də sakinlər kənddə həyata keçirilən kompleks quruculuq və abadlıq işlərini ölkəmizdə, eləcə də muxtar respublikamızda insan amilinə verilən qiymətin ifadəsi kimi dəyərləndirirlər.

Yaradılan yüksək şərait isə insanların qurub-yaratmaq əzmini daha da artırır. Doğrudan da, hər bir kənd sakini göstərilən dövlət qayğısını öz həyatında hiss edir. Kənd ağsaqqalı Möhsün Haşımov da Nəsirvazda yaradılan şəraitdən razılıqla danışır. Deyir ki, evində fasiləsiz mavi yanacaq şölələnən, işığı daim yanan, telefon, internet xidmətindən istifadə edən, rahat yoldan və səhiyyə xidmətindən yararlanan, uşağı abad məktəbdə təhsil alan hər bir sakin doğma yurd-yuvasının müasir yaşayış məntəqəsinə çevrilməsindən qürur duyur.

Nəsirvazdan bəhs edərkən, təbii ki, Dünya tufanını yada salmamaq mümkün deyil. Bu yerlər Nuh Peyğəmbərin ilk ayaq basdığı torpaq, onun əfsanəvi gəmisinin birinci limanı, ilk dayanacağı olub. Nəsirvaz kəndinin adı "Bilqamıs" dastanında Nuh Peyğəmbərlə əlaqədar təsvir olunan Nisr dağını da xatırladır. Gəmiqayanın yüksək ətəyindəki Nəbi yurdu (Nuh-Nəbi yurdu) Dünya tufanından sonra artıq burada ilkin məskunlaşmanın başlandığı məkan mənasını daşıyır. Bu ərazidəki Qaranquş yaylağı Nuh Peyğəmbər əsatirindəki dimdiyində dəfnə yarpağı gətirən, yaxud caynaqları palçığa batmış vəziyyətdə gəmiyə geri qayıtmış qaranquş əhvalatının yadigarı hesab edilir.

Nəsirvaz kəndindən şimal-şərqdə, Qapıcıq dağının cənub-şərq yamacındakı Qaranquş yaylağı ərazisi Eneolit, Tunc və İlk Dəmir dövrlərində Naxçıvanın qədim sakinlərinin əsas ov məskənlərindən olub. Elə həmin dövrlərdə burada iri qaya parçaları üzərində heyvan rəsmləri, ov və rəqs səhnələri, müxtəlif işarələr və damğalar həkk olunub. Gəmiqayada aşkar edilən qədim təsviri sənət nümunələri eradan əvvəl VI-I minilliklərdə Azərbaycan ərazisində yaşamış qədim əhalinin həyat tərzini, dünyagörüşünü, adət-ənənələrini, dini-ideoloji və estetik təfəkkürünün inkişafını izləməyə imkan verir. Qaranquş yaylağında Naxçıvan tayfalarının qədim yurd yerləri, yaşayış məskənləri, nekropollar və ibadətgahlar da var ki, bunlar ulu xalqımızın sirli-soraqlı keçmişindən xəbər verən abidələrdir. Ümummilli liderimiz Heydər Əliyev bununla bağlı deyib: ***"Naxçıvanın gözəl təbii abidələri var. Gəmiqaya dünyada məşhur bir yerdir... O, bizim böyük sərvətimizdir. Orada insanın qoyduğu izlər var. Bu, Azərbaycanın, onun ayrılmaz hissəsi olan Naxçıvanın tarixidir. Bunlarla məşğul olmaq lazımdır".***

Söylənilən bu fikirlərin real nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" 2001-ci il aprelin 26-da Sərəncam imzalayıb, abidə ətraflı tədqiq olunub, "Gəmiqaya" Tarix-Bədii Qoruğu yaradılıb. Hazırda buradakı muzeydə üzərində rəsmlər olan qaya daşları, Gəmiqayada aparılan tədqiqat işlərinə aid müxtəlif kitablar, qəzetlər, fotoşəkillər, qayaüstü rəsmlərin fotoşəkilləri, eləcə də Naxçıvanın 5 minillik tarixinə aid elmi simpoziumların materialları toplanılıb. Bir sözlə, xalqımızın tarixi etnoqrafiyası və arxeologiyası üçün mühüm əhəmiyyətə malik olan, bəşər tarixinin ilkin təkamül çağlarından xəbər verən Gəmiqaya abidəsi qədim insanların dini, ideoloji, mifoloji, siyasi görüşlərini özündə əks etdirən böyük bir mənbədir.

Gəmiqayanın ətəyinə sığınmış qədim yurd yeri Nəsirvazın gözəlliklərindən yazmaqla bitməz. Bu yerlərin yazı da, yayı da, payızı-qışı da insanın qəlbinə xoş hisslər bəxş edir. Bu yerlərə ilin hansı fəslində gəlirsənsə gəl, bu gözəllikləri görməyin ayrı zövqü var. Bizim də görüb qələmə ala, bir yazıya sığdıra bilmədiyimiz çox gözəlliklər qaldı yaddaşımızda. Ancaq bizi ən çox qürurlandıran o oldu ki, ulu əcdadlarımızın ayaq izlərinin yadigarına çevrilmiş bu qədim yurd yeri tarixin heç bir dövründə bu qədər abad, gözəl, yolları bu qədər rahat olmayıb. Azərbaycanın müasir kəndinin nümunəvi simasını özündə əks etdirən Nəsirvaz füsunkar təbiət mənzərələri, zəngin tarixi ilə yanaşı, öz inkişafı, müasirliyi ilə də insanı özünə heyran edir.

✍ **Gülcamal TAHİROVA**

## Kollegiya iclası olub



Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində keçirilən kollegiya iclasını komitənin sədri Əsgər Əsgərov açaraq geniş məruzə edib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında əkinəyararlı torpaq sahələrinin su təminatını yaxşılaşdırmaq, yeni torpaq sahələrini əkin dövriyyəsinə daxil etmək, torpaq sahələrinin şoranlaşmasının qarşısını almaq üçün cari ilin birinci yarısında meliorasiya və irriqasiya tədbirlərinin miqyası artırılıb, istismar, təmir və tikinti işləri həyata keçirilib. Kəngərli rayonunun Yurdçu kəndi ərazisində 59,4 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi başa çatdırılıb. Bu tədbirlərin davamı olaraq Yurdçu kəndi ərazisində 76 hektar, Şahbuz rayonunun Türkeş kəndi ərazisində 300 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisinə başlanılıb.

Bildirilib ki, muxtar respublika ərazisində yerləşən və 303,5 milyon kubmetr su tutumuna malik olan sututarlara 291,4 milyon kubmetr su ehtiyatı toplanıb. Su istifadəçilərinə mexaniki üsulla və öz axını ilə 160 milyon kubmetr suvarma suyu verilib, təkrar suvarma nəzərə alınmaqla 134 min 716 hektar torpaq sahəsi su ilə təmin olunub.

Qeyd edilib ki, bəhs olunan dövrdə torpaq sahələrində su təminatının yaxşılaşdırılması, suvarılan torpaq sahələrinin genişləndirilməsi, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, su itkisinin qarşısının alınması və torpaqların suvarılmasının səmərəliliyinin yüksəldilməsi üçün mühüm tədbirlər həyata keçirilib. Rentabelli suvarma şəbəkələrinin qurulmasına, mütərəqqi suvarma metodlarının tətbiqinə üstünlük verilib.

Kanal və arxların sukeçirmə qabiliyyətini artırmaq, su itkilərini aradan qaldırmaq üçün davamlı olaraq lildən təmizləmə işləri yerinə yetirilib, təmir-bərpa və tikinti işləri görülüb.

Torpaq sahələrinin su ilə təminatının yüksəldilməsi və su itkisinin qarşısının alınması məqsədilə arxlarda yenidənqurma işləri aparılıb, yeni arxlar qazılıb istifadəyə verilib. Şahbuz rayonunun Türkeş kəndi ərazisində 400 metr, Ordubad rayonunun Dəstə kəndində isə 200 metr yeni arx çəkilib, Aza kənd arxının 150 metr hissəsinin yeri dəyişdirilib.

Bu gün muxtar respublikanın şəhər və rayonlarında 336 kəhriz istismar olunmaqdadır. Ötən dövrdə kəhrizlərin təmir-bərpası diqqət mərkəzində saxlanılıb, 7 kəhrizdə təmir-bərpa işləri başa çatdırılıb, 5 kəhrizdə iş davam etdirilib.

Diqqətə çatdırılıb ki, 2019-cu ilin 6 ayı ərzində Maşın-Mexanizmlərin və Hidrotexniki Qurğuların Təmiri və Texniki Nəzarət İdarəsinin təmir sexlərində təmirə ehtiyacı olan müxtəlif markalı 5 avtomaşın, 1 avtokran, 2 ekskavator, 2 buldozer, 1 qazma aqreqatı, 1 mancanaq, 2 əks-klapan, 5 elektrik mühərriki, 20 su sayğacı, 2 nasos, 106 müxtəlifadlı nasos hissəsi təmir edilib, 585 yeni nasos hissəsi hazırlanıb.

"Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində bir sıra işlər görülüb.

Məruzə ətrafında çıxışlar olub.

## Tədbir keçirilib



Ailə əməyinə əsaslanan fərdi təsərrüfatların yaradılmasına kömək göstərilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Şərur, Babək, Ordubad, Culfa, Şahbuz, Kəngərli və Sədərək rayonları üzrə, ümumilikdə, 21 aztəminatlı ailə müəyyənləşdirilib və 14 nəfərə yanında balası olan iribuynuzlu, 3 nəfərə yanında balası olan 10 baş xırdabuynuzlu mal-qara, 1 nəfərə 10 yeşik arı ailəsi, 1 nəfərə mini yer şumlayan aqreqat, 1 nəfərə musiqi avadanlıqları, 1 nəfərə isə dərzi avadanlıqları və materialları verilib.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev muxtar respublikada aztəminatlı ailələrə göstərilən dövlət qayğısından, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

Sonra aztəminatlı ailə təmsilçilərinə verilən aktivlərlə bağlı sənədlər təqdim olunub.

**Xəbərlər şöbəsi**

Cəlil Məmmədquluzadə – 150

# Müsahibim Molla Nəsrəddindir

*– Ey Şərqin müdrik ağsaqqallarından olan Molla Nəsrəddin! Sən bir əsr bundan əvvəl bizi – Azərbaycan xalqını, müsəlman qardaşlarını deyib gəlmişdin. Böyük demokrat yazıçı və görkəmli ictimai xadim Cəlil Məmmədquluzadənin ideyalarından, xalqını, millətini necə görmək istəyindən, dövrün ən müasir inqilabi məsələlərindən danışmağa, din pərdəsi altında min bir oyundan çıxıb milləti cəhalətə sürükləyən "ruhanilərin" iç üzünü açmağa gəlmişdin. Sən ana dilimizin qayğıkeşi oldun. Ömrünün sonunadək doğma dil uğrunda mübarizə apardın. Millət sevdasından "Dəli" olub, "bəlkə millətimə bu cür təsir edə bilərəm", – dedin. Bunun yetərli olmadığını görəndə düşüncələrindəkini "Lağlağı"lıqla anlatmağa çalışdın. "Yox, bundan da fayda olmadı, bunlarla yenə də milləti oyada bilmədim", – deyə fikirləşərkən "Molla Nəsrəddin" oldun. Vətənini el-el, oba-oba səyahətə çıxıb hər təbəqə ilə "öz dili" ilə danışmağa başladın, bəlkə oyanalar, bəlkə dəyişələr, – deyə. Molla Nəsrəddin, ağsaqqal sözü dinlənilən olar, – deyib səni yuxuya getmiş bir xeyli müsəlmanı oyatmaqda ona kömək etməyə çağırmışdı böyük Cəlil Məmmədquluzadə. Mən də Milli Mətbuat Günü ərəfəsində səni deyib gəlmişəm, necə gəldin, səni necə qarşıladılar, necə yola saldılar, bundan söhbət aç, biz də maraqla dinləyək...*

– Cəlil Məmmədquluzadə "bu gün" idi. Milləti isə "dünən"də qalmışdı. Böyük canyanğısı ilə onları səsləyirdi: dünənlərdən bu günlərə səsləyirdi. Onu çox gözəl anlayırdım, ona görə də sözünü yerə salmağa haqqım yox idi. Gəldim, 1906-cı ilin 20 aprelində Mirzə Cəlilə köməyə gəldim və onun redaktorluğu ilə iyirmi beş il ərzində fəaliyyətimizi Tiflisdə, Təbrizdə və Bakıda böyük uğurla davam etdirdik. Gəldiyim gün üz tutdum millətə: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləri deyib gəlmişəm ki, mənim söhbətimi xoşlamayıb bəzi bəhanələr ilə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hükamalar buyurublar: sözünü o kəslərə de ki, sənə qulaq vermirlər.

Ey mənim müsəlman qardaşlarım! Zəmani ki, məndən bir gülməli söz eşidib ağzınızı göyə açıb və gözlərinizi yumub, o qədər "xa-xa!.." edib güldünüz ki, az qaldı bağırsaqlarınız yırtılsın və dəsmal əvəzinə ətəkləriniz ilə üz-gözünüzü silib, "lənət şeytana!" dediniz, o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz.

Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqət ilə baxınız camalınıza.

Sözümü tamam etdim, ancaq bir üzrüm var: məni gərək bağışlayasınız, ey mənim türk qardaşlarım ki, mən siz ilə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dili danışmaq eyibdir və şəxsin elminin azlığına dəlalət edir, amma hərdənbir keçmiş günləri yad etmək lazımdır: salınız yadınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay-lay deyirdi və qulaq ağrısı səbəbinə sakit olmurdunuz. Axırı biçarə ananız sizə deyirdi: "Bala, ağlama, xortdan gələr, səni aparar" və siz dəxi canınızın qorxusundan səsinizi kəsib ağlamaqdan sakit olurdunuz.

Hərdənbir ana dilini danışmaq ilə keçmişdəki gözəl günləri yad etməyin nə eybi var?!"

Fəaliyyətimizə ana dilini qorumaqla başlamışdıq. Çünki milləti yuxudan oyatmaq üçün lazım olanların ən ümdəsi dil idi. "Dil" ucbatından "Anama de ki, Fatmanın oğlu oldu"nu "Fatmanın oğlu öldü" kimi oxuyub az qala bir ananın ürəyini partladan Molla Cəfəri ittiham eləmədik, dilimizi bəyənməyib başqa dildə danışan "Bizim"obrazovannı"lar"ı qofta (küftə) atəşinə tutmadıq, "Meymunlar" kimi bir-birini yamsılayıb özgə dildə danışın, Fatmanı "Fatya", Həsəni "Qasanka" Münəvvəri "Varya" çağıranlara qarşı üsyankar olmadıq? "Əlifba" dan söhbət açıb millətin yarısının ərəb, fars, bir yarısının da rus dilində danışmasını səhifələrimizə çıxarıb "Molla Nəsrəddin"in münasibətini bildirmədik? Öz dilində danışmayanları qınamaq necə olar ki? Bax biz belə yazmışdıq: "... Allah atana rəhmət eləsin, bəs ta hanı türk dili? Qardaş, zarafat deyil ki, dilimizdən iyrənirik, vəssalam!

Uca papaqlılarımız bir-birinə kağız yazanda yazır: "və nigarani nədarim səvayi əz duri və mofariqəti şoma".

Alçaq papaqlılarımız da bircə il qorodskoy şkolada uçit eləyəndən sonra küçədə bir iznakomini vstret eləyəndə o saat şapqasını çıxarıb deyir:

– İzdrasti, bacalusqa".

*– Cəlil Məmmədquluzadənin "Azərbaycan" məqaləsi isə onun vətəndaşlıq qayəsi idi: "...Bəzi vaxt otururam və papağımı qarşıma qoyub fikrə gedirəm, özümdən soruşuram ki:*

*– Mənim anam kimdir?*

*Öz-özümə də cavab verirəm ki:*

*– Mənim anam rəhmətlik Zöhrəbanu bacı idi.*

*– Dilim nə dilidir?*

*– Azərbaycan dilidir.*

*– Yəni Vətənim haradır?*

*– Azərbaycan vilayətidir.*

*– Haradır Azərbaycan?*

*– ... Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən; qalan hissələri də Gilandan tutub, qədim Rusiya hökuməti ilə Osmanlı hökuməti daxilindədir..."*

*Böyük mirzəcəlilşünas, akademik İsa Həbibbəyli özünün "Cəlil Məmmədquluzadə – Milli İstiqlal ədəbiyyatının sərkərdəsi" adlı məqaləsində yazır: "1917-ci ildə yazılmış "Azərbaycan" məqaləsində Mirzə Cəlil vaxtilə Şah İsmayıl Xətainin qılıncı ilə çəkdiyi Azərbaycan xəritəsini böyük məharətlə qələmi ilə cızmışdır. "Azərbaycan" məqaləsi Cəlil Məmmədquluzadənin Azərbaycançılıq konsepsiyasının bəyannaməsidir: Cəlil Məmmədquluzadə Azərbaycan xalqı üçün Vətən, millət və ana dilindən başqa nicat yolu olmadığını var-gücü ilə car çəkmişdir. Vətən, millət və dil məsələləri Cəlil Məmmədquluzadə yaradıcılığının əsas sütunlarıdır".*

– Bəli, Cəlil Məmmədquluzadə qələmi ilə birgə azad Vətən, xoşbəxt millət naminə axtarışa çıxmışdı. Hələ "Mozalan", "Hop-hop", "Lağlağı", "Hərdəmxəyal" millət, Vətən adına bir qulluq eləmək niyyətilə rusların "zadaça" dediyi 18 məsələdən ibarət "Təzə təlim kitabı" cəm etmişdilər ki, cəmiyyətin bütün eybəcərlikləri bu məsələlərdə öz həllini tapmışdı. Amma nə fayda? Bunları dərk edən kim idi? "Niyə məni döyürsünüz?" – deyib, "Niyə mən dərsdən qaçdım"ı anladanın: – "A mollalar, niyə məni döyürsünüz? Olmaya məndən qorxursunuz? Olmaya qorxursunuz ki, əyilib camaatın qulağına bir neçə söz pıçıldayam, bir neçə mətləblərdən agah edəm? Olmaya qorxursunuz ki, məcmuəmin vərəqlərini nökərlər samovar alışığı edə-edə və şəkillərini uşaqlar oynada-oynada axırda camaat gözünü açıb bəzi işlərdən xəbərdar ola?" səsinə səs verən kim idi?

"Molla Nəsrəddin" deyirdi ki, "Biz" "Nə vaxt" , "Bəs nə vaxt" "Azadiyi-vicdan" olacağıq. "Fürsət" tapıb" xalqa "Bir para sözlər" dinlədib, "Oktyabr kimin bayramıdır?"ı açıqlaya və onlara "İnqilab lazım" olduğunu anlada biləcəyik? "İfratın mənfəəti"nin "Tərəqqi əlamətləri" olduğunu "Müsəlman içində gördüklərim"dən fərqliliyini sübut edə biləcəyik? "Çox qəribə" idi ki, "Molla Nəsrəddin" dəfələrlə yazsa da, millətə üz tutub onlara hüquqlarından, azad yaşamağın gözəlliyindən bəhs etsə də, onun "Nəsihət"ini dinləyən yox idi. Lakin mollanəsrəddinçilər bu yoldan çəkinmir, yorulmur, usanmır, "Müsəlman"lara "Qatıq ağdırmı, qaradırmı?" ilə "İsti su-soyuq su"yun fərqini yenə də izah edir və bu yolda mübarizəni böyük yanğı ilə davam etdirirdilər.

*– "Molla Nəsrəddin" milləti doğru yola tək yazmaqla deyil, həm də şəkillərlə, karikaturalarla dəvət edirdi.*

– Jurnalın rəngarəng çıxmasında, bəzən şəkillərin, karikaturaların sanki "dil açıb" danışmasında rəssamlar – Əzim Əzimzadə, Oskar Şmerlinq, İosif Rotterin böyük əməkləri olmuşdur. Birinci nömrəmizin üz qabığında həmvətənlərimizi yatmış vəziyyətdə göstərən bir rəsm çəkdirib dərc etmişdik. Bununla da ümumi amalımızı, məqsədimizi ortaya qoymuşduq. Onları oyandırıb söylədiklərimizə qulaq asmaqlarını xahiş edirdik. Çünki "Molla Nəsrəddin"i Azərbaycan xalqının min illərdən bəri davam edib gələn dərdləri çox düşündürürdü. Bu dərdlər içərisində dini fanatizm daha dəhşətlisi idi. O dövrün cəmiyyətində dini əldə rəhbər tutub bundan yararlanan ruhanilərə hər addımda rast gəlinirdi. Onların sayı sanki yağışdan sonra çıxan göbələklər kimi gündən-günə artırdı. Dinin mahiyyətini bilməyənlərə, bundan sui-istifadə edib camaatın malını tar-mar edənlərə, onları mövhumata sürükləyib elmdən, təhsildən yayındıranlara, azadlığı, intibahı din pərdəsi altında kəsib-doğrayanlara qarşı "Molla Nəsrəddin" üsyan edib deyirdi: – "Əvvələn, mən molla ola-ola müsəlman qardaşlarıma vəz edən vaxt deyirəm: Bir Allaha sitayiş edin, bir də Peyğəmbərə və imamlara itaət edin. Amma siz deyirsiniz: Allaha da sitayiş edin, Peyğəmbərə də, imamlara da, mollalara da, dərvişlərə də, ilan oynadanlara da, fala baxan, tas quran, dua yazan, cadukün, həmzad, əcinnə, kəlilə, dimnə, şeytan, div, mərrix, sərrix, tərrix, amax, saşan, küflə qurdu, mığmığ,



mozalan – bunların cümləsinə sitayiş edin!

...Mən də mollayam, siz də molla. Amma mən müsəlman qardaşlara deyirəm: ey müsəlmanlar, gözünüzü açınız, mənə baxınız; amma siz mollalar deyirsiniz: ey müsəlmanlar, gözünüzü yumunuz, mənə baxınız.

...Mən də mollayam, siz də mollasız. Amma bir balaca təfavütü budur ki, mən heç olmasa bir parça qalın kağız üstünə bir neçə nağıl-nuğul yazıb ilan-qurbağa şəkli çəkirəm ki, oğul-uşaq şəkillərə baxıb gülsünlər və nökərlər kağızını alışıq edib, asanlıq ilə ocağı yandırsınlar...

*Siz mollalar deyirsiniz:*

*Səs salma, yatanlar ayılar, qoy hələ yatsın!*
*Yatmışları razı deyiləm kimsə oyatsın.*
*Tək-tək ayılan varsa da haqq dadıma çatsın!*
*Mən salim olum, cümlə cahan batsa da batsın!*

*Millət necə tarac olur-olsun, nə işim var?*
*Düşmənlərə möhtac olur olsun, nə işim var?"*

Nə deyirdi ki, "Molla Nəsrəddin?" "Məscidlərimiz"də "Din"lə, "Dindarlıq"la məşğul olan dırnaqarası mollaların "Din və millət"in başına açdıqları oyunlardan danışırdı. "Oruc yeyənlərin və oruc tutanların hesabı"ndan "Orucu batil eləyən şeylər"ədək açıb tökürdü ortaya. Camaatı yoldan çıxarıb günlərlə çölün düzündə, günün altında yağış üçün "Müsəlla" ya vadar edənlərin fitnə-fırıldağını lağa qoyub gülürdü. "Ruzi-aşura"dan ta "Aşura oğruları"nın hərəkətlərinədək xalqa bəyan edirdi. Küçələrdə zəncir vurub özünə zərər verən, "Baş yarmaq"la qanlarını axıdanlara üz tutub: "Bu gün Kərbəla meydanı Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır!" – deyirdi. Amma yenə də nə fayda? "Molla Nəsrəddin" nəşrindən düz 20 il sonra "hələ ayılmayıb", – deyə hayqıranda, qonşunun "Kim ayılmayıb?" sualına "Hələ dəm alır", – dedi: "Ayılmayan həmin mənim millətimdir ki, iyirmi il bundan qabaq mən onu yuxuda qoyub gəldim".

*– Cəlil Məmmədquluzadəni dinsizliklə ittiham edirdilər.*

– "Molla Nəsrəddin" Azərbaycanda milli satirik mətbuatın və tənqidi-realist ədəbiyyatın əsasını qoymuşdu. Mirzə Ələkbər Sabir, Məmməd Səid Ordubadi, Əbdürrəhim bəy Haqverdiyev, Əli Nəzmi, Əliqulu Qəmküsar, Mirzəli Möcüz Şəbüstəri kimi görkəmli sənətkarları öz ətrafında toplayan dərgi açıq söz söyləyirdi, düz yol göstərirdi. Yalanı qamçılayırdı, haqsızlığı kəsirdi, ədalətsizliyə meydan oxuyurdu, fırıldaqçılara müharibə elan edirdi. Məqsəd dövrün ziyalılarının düşüncələrindəki Azərbaycanı görmək idi. Azərbaycan xalqını, millətini hər xalqdan, millətdən öndə görmək idi. Onları fanatizm, mövhumat girdabında yox, inkişaf, intibah yollarında görmək idi. Elə bütün bunlara görə də məlum qüvvələr Mirzə Cəlili dinsizliklə, "Molla Nəsrəddin"i Allahsızlıqla damğalamaq istəyirdilər. O necə Allahsız idi ki, ədəbiyyat aləmi ilə tanışlığa böyük İslam şairi, dahi Məhəmməd Füzulinin əsərləri ilə başlamışdı? O necə Allahsız idi ki, "Molla Nəsrəddin" jurnalının adının "Allahsız" adı ilə əvəzlənməsinə qəti şəkildə etiraz edib, "Allah olmayan yerdə mən yoxam", – demişdi? O necə Allahsız idi ki, yaşadığı ev dəfələrlə axtarışlara məruz qalmışdı? Nə axtarırdılar, "Allahsızın" evində?

"Molla Nəsrəddin" bu və digər səbəblərdən də yeni dövrün sərt tənqid, qınaq və təqiblərinə məruz qaldı. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında əvəzsiz xidmətləri olan, sovet dövrü kimi ağır rejimdə təzyiqlər altında işini davam etdirib sözünü deyə bilən, milli şüuru formalaşdıran jurnal 1931-ci ildə öz fəaliyyətini dayandırdı. 1932-ci ildə isə böyük mütəfəkkir-yazıçı Cəlil Məmmədquluzadə dünyasını dəyişdi. Elə Mirzə Cəlilin jurnalın nəşrinin dayandırılımasından cəmi bir il sonra ölümünə səbəb ona qarşı haqsızlıqlar, səhv başa düşülməsi oldu. O, bu haqsızlığa dözə bilmirdi. Hələ neçə-neçə nəşr olunmamış gözəl əsərləri də var idi ki, hamısını yandırdı. Kaş ki əsərlərini yandırarkən onun üzündəki "Od əllərimi, qəlbimi, yoxsa əsərlərimi yandırır?" ifadəsini görə bilərdiniz…

...Bəli, tək Mirzə Cəlil deyil, Nəsimilər, Füzulilər, Nizamilər, Vaqiflər, Sabirlər – yüzlərlə şair və yazarlarımızın əksəriyyəti dövründə düzgün başa düşülməyib. Çünki Azərbaycan iştahasında olanlar xalqı, milləti əsrlərlə doğru yoldan döndərməyə çalışıblar. Şükürlər olsun ki, əsrlərin mücadilə və mübarizəsi öz bəhrəsini verib, Azərbaycan müstəqil respublika olub. Dünyada tanınıb, inkişaf etmiş ölkələr sırasında yer alıb. Qızıl torpağın içərisində də öz parlaqlığını saxladığı kimi, Mirzə Cəlil kimiləri də xalq milli yaddaşının dəyər genofondunda saxlaya bilib. Onların hər biri qiymətini alıb, xalqın mənəvi irsinə çevriliblər. Budur, Cəlil Məmmədquluzadə haqqında ümummilli liderimiz Heydər Əliyevin dəyərli fikirləri: ***"Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə, əsərləri ilə, publisistikası ilə, böyük mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlilin fəaliyyətinin rolu misilsizdir".***

2019-cu ildə Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında ölkə Prezidentinin Sərəncamı, böyük ədibin ayrı-ayrı illərdə keçirilən yubileyləri, Bakıda və doğulduğu doğma Naxçıvanda ev-muzeylərinin yaradılması, Nehrəm və Cəlilkənd kəndlərində xatirə muzeylərinin açılması, heykəlinin ucaldılması, teatr, muzey, şəhər, qəsəbə, kənd və küçələrə adının verilməsi, əsərlərinin səhnələşdirilməsi, külliyatının dəfələrlə, hətta latın qrafikası ilə nəşri, kitabxanalara hədiyyə edilməsi, "Oxunması zəruri olan kitablar Siyahısı"na daxil olunması onun ölməz irsinə sonsuz sevginin, sayğının göstəriciləridir.

Ey Şərqin müdrik ağsaqqallı Molla Nəsrəddin! Naxçıvanda illərdir ki, mirzəcəlilşünaslıq məktəbi fəaliyyət göstərir. Bu məktəbin banisi akademik İsa Həbibbəyli yazır: *"Böyük Cəlil Məmmədquluzadənin redaktorluğu ilə nəşr edilən məşhur "Molla Nəsrəddin" jurnalı Azərbaycan tənqidi realizm ədəbiyyatının ideya-sənət cəbbəxanasıdır. Mübariz ideyalarına və qətiyyətli mövqeyinə görə "Molla Nəsrəddin" jurnalı Azərbaycan xalqının istiqlal kitabına çevrilmişdir".* Kaş ki gəlib sizin qələmlə becərdiyiniz, bizlərin isə qanla cücərtdiyimiz istiqlalımızı görə bilərdiniz. Kaş ki yaralarınıza məlhəm olacaq ana dili haqqında qanunlarımızla tanış ola, ana dilinə ucaldılan abidələrimizi görə bilərdiniz. Həmfikirlərinizi, nəşr olunan çoxsaylı qəzet və jurnalları, onlara verilən söz, mətbuat azadlığını görə bilərdiniz. Şəhər, qəsəbə, kəndlərimizdə uşaqların oxuduqları məktəbləri, respublikamızdakı ali məktəblərdə, xarici ölkələrdə təhsil alan gənclərimizi, gəncliyimizin intellektual səviyyəsini görə bilərdiniz. Kaş ki ölkəmizdəki dini tolerantlığı, sizin yaralı yeriniz olan Aşura günlərində qanvermə aksiyalarının xalqın neçə-neçə övladına həyat verdiyini görərdiniz. Dövrünüzün mövhumat yuvalarından fərqli dini ocaqlarımızı, oradakı təhsilli ruhaniləri, dini və yas mərasimlərimizin sadəliyini görə bilərdiniz. Kaş ki görə bilərdiniz: bir əsr öncəkindən çox fərqli bir əsr sonranı…

*Müsahibə üçün ruhun şad olsun, Molla Nəsrəddin!*

✍ Mətanət MƏMMƏDOVA



***Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan qədim abidələr diyarıdır. Xalqımızın zəngin keçmişini, mədəniyyətini, adət-ənənələrini özündə yaşadan həmin abidələrdən biri də Azərbaycan tarixinə adlı-sanlı generallar, hərbçilər, dövlət xadimləri vermiş Kəngərli nəslinin, Naxçıvan xanlarının iqamətgahı olmuş Xan sarayıdır. Xan sarayı müxtəlif dövrlərdə baxımsız vəziyyətə düşsə də, qorunub saxlanılıb.***

# "Xan Sarayı" Muzey Kompleksinin fondları və zəngin keçmişimiz

Bu qədim mədəniyyət incisi Azərbaycanın milli dövlətçilik tarixində Naxçıvan xanlığının tutduğu xüsusi mövqeyi nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi kimi fəaliyyətə başlayıb. Ali Məclis Sədrinin digər – 2015-ci il 2 fevral tarixli Sərəncamına əsasən artıq "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi kimi fəaliyyətini davam etdirir. Ali Məclisin Sədri muzeyin açılışı zamanı ulu öndərimizin bu kəlamını xatırladıb: ***"Azərbaycan xanlıqlara bölünən dövrdə Naxçıvan xanlığı yaranıbdır. Naxçıvan xanlığı da Atabəylər dövlətçiliyinin davamı kimi özünü göstəribdir. Naxçıvan xanlığı, Azərbaycanın başqa bölgələrinin xanlıqları Azərbaycan dövlətçiliyini təmsil ediblər, Azərbaycanı qoruyub yaşadıblar".*** Bu, ümummilli liderimiz tərəfindən Naxçıvan xanlığının fəaliyyətinə verilən qiymət idi.



Naxçıvan xanlığının əsası 1747-ci ildə Heydərqulu xan tərəfindən qoyulub. 1828-ci il fevral ayının 10-da imzalanmış Türkmənçay sülh müqaviləsinə əsasən fəaliyyəti dayandırılıb. Naxçıvan xanlığı Azərbaycan dövlətçiliyinə böyük töhfələr verib. Məhz möhtəşəm Xan sarayının 1780-ci ildə Kalbalı xan Kəngərli tərəfindən inşa etdirilməsi də onun xidmətlərinin bir göstəricisidir. Şərq memarlığı üslubunda inşa edilmiş abidə XVIII əsrin ortalarından XX əsrin əvvəllərinədək Naxçıvan xanlarının yaşayış evi olmaqla yanaşı, həm də dövlətin siyasi iqamətgahı funksiyasına yerinə yetirib. Naxçıvan xanlığı ləğv edildikdən sonra bir sıra məqsədlər üçün istifadə olunan bu sarayda Kəngərli süvarilərinin komandanlığı yerləşdirilib, 1918-1920-ci illərdə Naxçıvan Milli Müdafiə Şurasının qərargahı buraya köçürülüb. Saray 1998-ci ilin aprelindən 2010-cu ilədək Naxçıvan Muxtar Respublikası Dövlət Xalça Muzeyi kimi fəaliyyət göstərib.



Muzeyin ekspozisiyası 9 zaldan ibarətdir. Yarandığı dövrdə 150 eksponatla fəaliyyətə başlasa da, hazırda eksponatların sayı 3 minə yaxındır. Həmin eksponatların 334-ü ekspozisiya zallarında nümayiş və təbliğ edilir, digər hissəsi isə fond otaqlarında qorunub mühafizə olunur. Eksponatlar içərisində arxiv sənədləri, Naxçıvan xanlarının şəcərəsi, xəritəsi, xanlığın tarixi və atributları ilə bağlı nəşr olunan kitablar, Kəngərli sülaləsindən olan generalların, ictimai xadimlərin fotoları ilə yanaşı, tanınmış qadın nümayəndələrindən Heyran xanım, Xurşid Qacar, Qönçəbəyim, Xanbikə xanım, Zərrintac bəyim haqqında foto və yazılı məlumatlar vardır. Naxçıvan xanlığının o dövrdə əlaqədə olduğu dövlətlər, o cümlədən Rusiya ilə iş aparılıb, onların arxivlərindən əldə edilməsi mümkün olan sənədlər də muxtar respublikaya gətirilərək muzeydə yerləşdirilib.

"Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yeni eksponatlarla zənginləşdirilməsi daim diqqət mərkəzindədir. ***"Muzeylər Azərbaycan xalqının tarixini, böyük şəxsiyyətlərimizin həyatlarını, yaradıcılığını, fəaliyyətlərini özündə əks etdirir. Xalqın tarixi həm kitablarda yazılmaqla, həm də muzeylərdə qorunmaqla gələcək nəsillərə çatdırılır. Muzeylər bizim keçmişimizi özündə yaşadan, gələcəyə daşıyan yerlərdir"***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov maddi-mənəvi sərvətlər xəzinəsi olan muzeylərə marağın artmasına, tarixi-mizin, mədəni irsimizin və dövlətçilik ənənələrimizin hərtərəfli öyrənilməsinə böyük önəm verir. Ali Məclis Sədrinin muzeyin fəaliyyətinin gücləndirilməsi məqsədilə ekspozisiya zallarında nümayiş və təbliğ olunması üçün hədiyyə etdiyi saysız-hesabsız qiymətli eksponatlar vardır. Bu eksponatlar içərisində rəssam Tağı Tağıyevin 2016-cı ildə kətan üzərində yağlı boya ilə işlədiyi "Naxçıvan", rəssam Şamil Qazıyevin "Naxçıvan mənzərəsi" də yer alır. Hədiyyə edilən daha bir maraqlı eksponat isə "Süvarilər" təsviri sənət əsəridir. Əsərdə Kəngərli süvarilərini xatırladan, qızılı rəngli həsir saplardan səkkiz at ilxısı, atlardan birinin üstündə isə başı dolama çalmalı insan təsviri edilib.

Ali Məclis Sədrinin son dövrlər kompleksə hədiyyə etdiyi tarixi əhəmiyyətli eksponatlardan – XX əsrə aid nəbati təsvirlərlə bəzədilmiş, əjdaha başını xatırladan fiqurlu qulpu olan mis qəhvədan, gül təsvirləri ilə əhatələnmiş, üçayaqlı, şəbəkəli kürsülük, müxtəlif rənglərdən ibarət nəbati naxışlarla işlənmiş farfor nimçə tövsiyə olunan zalda müvafiq guşəyə yerləşdirilib. Muzeyi ziyarət edən tamaşaçıların diqqətini cəlb edən, onların marağına səbəb olan eksponatlar sırasında XVIII-XX əsrlərin əvvəllərində torpaqlarımızın qorunması və müdafiəsində istifadə edilən silahlar – berdenka, beşaçılan, dayandoldurum, mauzer tapança və sair hərbi sursat növləri ekspozisiya zallarında nümayiş etdirilir.

Bu mədəniyyət müəssisəsinin zənginləşdirilməsində muzey əməkdaşları və muxtar respublika sakinləri də yaxından iştirak edirlər. Eksponatlar könüllü olaraq təqdim edilir və bu məqsədlə muzeylərdə təqdimat mərasimləri keçirilir. Həmin təqdimat mərasimlərindən biri də son dövrlər kompleksdə Kəngərlilər nəslinin tanınmış nümayəndələrindən biri olan Əkbər xan Əmənulla xan oğlu Naxçıvanski ilə bağlı keçirilən tədbir olub. Əkbər xanın Rusiyada yaşayan yaxın qohumları – Fərhad, Fərman və Yasna Nağdəliyevlər o dövrün tarixinin araşdırılmasına öz töhfələrini vermək üçün Naxçıvana gələrək saxladıqları dəyərli tarixi arxiv materiallarını, öz ailələrinə mənsub qədim əşyaları Xan sarayına təqdim ediblər. Bu materiallar arasında Kəngərli nəslinin görkəmli nümayəndələrinə aid 36 foto, 40 müxtəlif arxiv sənədinin surətləri, Əkbər xan Naxçıvanski tərəfindən şəxsən istifadə edilmiş gümüş şirniyyat qabı, stəkanaltı, yemək qaşıqları vardır.

Muzey fondunun zənginləşdirilməsi məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsindən akademik İsmayıl Hacıyev, tarix elmləri doktoru Fəxrəddin Səfərli, tarixçi-alim Musa Quliyev və başqa alimlərlə daim əlaqə saxlanılır.

Eyni zamanda Naxçıvan Dövlət Arxiv İdarəsi tərəfindən kompleksə təhvil verilən muzey əhəmiyyətli mənbələrdən Kəngərli nəslinin vəkil (sultan) qolunun nümayəndələrindən Kərim sultan və Mənsur ağa Kəngərlilərə, İsmayıl ağa Naxçıvanskiyə, Bəhram xan Naxçıvanskiyə, Kiçikbəyim İbrahim xan qızı Kəlbəlixanovaya, Əliqulu xan Kəlbəlixanov və həyat yoldaşı Zeynəb Məmmədhəsən qızının qardaşı Hüseyn xana aid arxiv materialları qiymətli mənbələrdir və həmin eksponatlar müvafiq guşələrdə yerləşdirilərək təbliğ edilir.

Bir sıra tədbirlərə ev sahibliyi etmiş, tarix və mədəniyyətimizin təbliğ olunduğu bu məkan yalnız Azərbaycanın bölgələrindən olan qonaqların deyil, həmçinin müxtəlif səfirliklərin, beynəlxalq təşkilatların, xarici ölkələrdən gələn turistlərin də diqqətini cəlb edir.

YUNESKO-nun Ümumdünya İrs Komitəsi tərəfindən Azərbaycanın "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi buna inanmağa əsas verir ki, Naxçıvanın "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi kimi qədim maddi-mədəni irsi sayılan tarixi abidələri də yaxın gələcəkdə bu siyahıya salınacaqdır.

**Zülfiyyə ƏLİYEVA**
***"Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin baş fond mühafizi, elmi işçi***

*Axtarışlar, tapıntılar*

# Osmanlı musiqi tarixinə adını qızıl hərflərlə yazdıran naxçıvanlı bəstəkar



Türkiyə klassik musiqisinin inkişafında xüsusi yeri olan sənətkarlardan biri də Murad ağadır. Bir çox mənbədə göstərilir ki, o, 1610-cu ildə anadan olub, əslən naxçıvanlıdır. Sultan IV Muradın Rəvan səfərindən sonra İstanbula gətirdiyi on iki sənətkar arasında yer alan Murad ağa sazəndə qrupunun iki xanəndəsindən biri olub. Əsəd Əfəndi bu barədə yazır: "On iki şəxs Bağdaddan İstanbula gələndə çox gənc idilər".

"İslam Ensiklopediyası"nda bu barədə məlumat verilir. Övliya Çələbi onun carta (çartar), Hüseyn Behcətin şestak, Əsəd Əfəndinin şeştar çaldığından bəhs edir. Onun şeştar ustası olması musiqişünaslar arasında Şeştari Murad ağa kimi tanınmasına gətirib çıxarıb.

Qeyd edək ki, şeştar (şeştay) türklər və digər müsəlman xalqları tərəfindən istifadə edilən və yerini tambura vermiş olan simli çalğı alətidir. Mənbələrdə qeyd olunur ki, təbrizli Əli xanın icad etdiyi bu musiqi aləti çartara bənzəyir. Lakin adından da bilindiyi kimi, onun altı simi var. Şeştardan bu gün İran, Azərbaycan və Qafqazda da istifadə olunur. İbn Qəbinin tərifinə əsasən onun müxtəlifölçülü uda bənzəyən üç növünün olması ilə bağlı məlumat var.

Bu barədə mənbələrdə qeyd olunur ki, şeştar unudulmuş simli, mizrablı musiqi alətidir, "Dastani Əhməd Hərami"də, Əbdülqadir Marağayinin əsərlərində, Həbibinin şeirlərində bu musiqi alətinin adına rast gəlirik. Belə bir fakt diqqəti cəlb edir: Həbibinin şeirlərinin birində udun adı digər simli alətlər – şeştar, çəng və bərbətlə yanaşı çəkilir.

Ə.Marağayi 3 cür şeştay haqda məlumat verir. I-II növ şeştaylar qolunun ölçüsünə görə fərqləniblər. III növ şeştayın isə gövdəsi üzərində 15 cüt sim olub və əsasən Anadoluda istifadə edilib. Şeştayların bütün növlərinin udabənzər çanağı, 6 simi olub. Bu simlər cüt köklənərdi. Alətin kəlləsində 6 aşıx yerləşdirilər, çanağın üzərinə ağacdan nazik üzlük vurulardı. Fikrimizcə, III növ şeştay daha maraqlı alət olub, 15 cüt aşıx isə sitar alətində olduğu kimi, qolda yerləşdirilib, yəni qol boyu aşıxlar düzülüb.

Şeştar sözündə şeş-altı, tar isə bir neçə hissə, ümumilikdə, altıhissəli alət mənasını verir.

Türkiyənin musiqi tarixinə dair yazılmış bir sıra mənbələrdə də Murad ağa Şeştari ilə bağlı çox maraqlı faktlar yer alıb. Murad ağanın şöhrətinin ən parlaq dövrü IV Murad ilə (1623-1640) IV Məmməd (1648-1687) dövrləri arasında olub. İstanbula gəldikdən sonra Beşiktaş tərəfdə yaşayıb, burada da vəfat edib.

Hüseyn Behcətin ona yazdığı şeirdən aydın olur ki, Murad ağa İstanbulda 36 il yaşayıb. Behcətin "Tarix" mənzuməsində Murad ağanın şairliyindən də bəhs edilib, o, məlahətli səsə malik olub.

Murad ağa Şeştari bəstələdiyi əsərlərlə dövrün tanınmış musiqişünasları arasında yer almağı bacarıb. Mənbələrdə qeyd olunur ki, o, musiqiyə aid ilk dərsləri elə doğulduğu torpaqda, Naxçıvanda alıb. Sonralar musiqi təhsilini İstanbulda davam etdirib, öyrəndikləri ilə ustad səviyyəsinə çatıb.

Bəzi akademik məqalələrdə bəstəkarın "Busəlik müxəmməs karçəsi" adlanan əsəri haqqında məlumatlar yer alıb. Bir çox mənbələrdə əsərin sözlərinin Sultan Hüseyin Bayqara, Kəmaləddin Murad Haciyi Kirmani və sair müəlliflərə aid olduğu barədə faktlara rast gəlinsə də, bunun dəqiqliklə kimə məxsus olması hələlik elmi təsdiqini tapmayıb.

Murad ağanın tərcümeyi-halından qısaca bəhs edən Əsəd Əfəndinin yazdığına görə Murad Şeştari 30-a yaxın əsər bəstələyib. Bu əsərlər isə, təbii ki, özündən sonra gələn musiqi sənətində öz sözünü deməklə yanaşı, müəyyən istiqamətdə onlara təsir də edib. Maraqlı isə odur ki, hələ Osmanlı dövründə yaranan və geniş təbliğ edilən bu musiqilərin müəllifi naxçıvanlıdır.

Belə sənətkarlarımız isə, yəqin ki, yetəri sayda çoxdur. Onları araşdırıb ortaya çıxarmaq və tanıtmaq hər bir elm adamının müqəddəs borcu olmaqla yanaşı, həm də qürurvericidir. Bu tarixi simalar tədqiq və təbliğ olunduqca Naxçıvanımızla daha da fəxr edirik.

**Nərgiz İSMAYILOVA**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*
Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Nömrəyə məsul:* Mətanət Məmmədova
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1495. Sifariş № 479